İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# HƏYAT EŞQİ

(hekayələr)

CEK LONDON

İngilis dilindən tərcümə:

Manaf Süleymanov

parlaq
İMZALAR

| | |
|---|---|
| Koordinator: | Amin |
| Redaktorlar: | Ənvər RZA<br>Toğrul MUSAYEV |
| Korrektor: | Fəridə ZİYADOVA |
| Yekun oxunuş: | Fəridə ZİYADOVA |
| Tərtibatçı: | İsmayıl SÜLEYMANLI |
| Art-direktor: | Ramin HƏSƏNƏLİZADƏ |
| Cildin dizayneri: | Aygül ƏLİYEVA |

**Jack London**
**LOVE OF LIFE** *(stories)*

**Cek London**
**HƏYAT EŞQİ** *(hekayələr)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2024, 72 səh.



**© "The Macmillan Company" / 1907-1908**
**© Parlaq İmzalar MMC / 2024**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.



Parlaq İmzalar Nəşriyyatı | 136
Yoldaş seriyası | 12

ISBN 995284945-5
9789952849455



www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259



Mətbəə: "AVE PRİNT" MMC
FEVRAL / 2024

**Cek London** 1876-cı il yanvarın 12-də San-Fransisko şəhərində anadan olub. Əsl adı Con Qriffit Çeynidir. London uşaq yaşlarından böyük əzab-əziyyətlərə qatlaşır; o, San-Fransiskonun küçələrində ayaqqabı silir, qəzet satır, çay və okean gəmilərinin göyərtələrini yuyur, limanlarda yük vurub yük boşaldırdı. 1896-cı ildə Kaliforniya Universitetinə qəbul olur. Ancaq maddi vəziyyəti pis olduğundan universiteti yarımçıq qoyur.

C. London təxminən 40-dan çox kitab yazır. Şübhəsiz, ən məşhur əsəri "Martin İden"dir (1909). Bundan başqa, dünya ədəbiyyatının əvəzolunmaz klassiklərindən sayılan "Ağdiş", "Əcdadların harayı", "Dəmir daban" da yazıçının uğurlu əsərləri sırasındadır.

Böyük yazıçı 1916-cı il noyabrın 22-də Kaliforniya ştatının Qlen Ellen şəhərində vəfat edir.

**Manaf Süleymanov** 1912-ci il martın 3-də İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub. 1930-cu ildə pedaqoji təmayüllü 18 saylı Bakı şəhər məktəbini bitirib, sonra M. Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutunun geoloji kəşfiyyat fakültəsində təhsil alıb. Ədəbi yaradıcılığa 1947-ci ildə "Azərbaycan" jurnalında dərc olunan "Yerin sirri" romanı ilə başlayıb. Məşhur "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabı isə 1987-ci ildə çap olunub.

Manaf Süleymanov ingilis, fars, ərəb dillərini bilməklə yanaşı, rus dilində də yazıb-yaradıb. Oxucular onun tərcüməsində Cek London, Con Steynbek, O. Henri, Somerset Moem kimi görkəmli ingilis yazıçılarının əsərləri ilə tanış olublar.

Yazıçı-tərcüməçi 2001-ci il sentyabrın 12-də dünyasını dəyişib.

# Mündəricat

Həyat eşqi_____________________________9

Tonqal qalamaq_______________________43

# HƏYAT EŞQİ

*Günlər ömrümüzdən keçmədi hədər;*
*Baha başa gəldi oyunu udmaq.*
*Korşaldı ən təmiz, ən zərif hisslər,*
*Oyun yanan şama dəyərdi ancaq.*[1]

Onlar əziyyət çəkə-çəkə, axsaya-axsaya, çətinliklə çayın sahilinə endilər. Çınqıllığa çatanda qabaqda gedən adam büdrədi, az qaldı yıxılsın, lakin birtəhər özünü ələ alıb yoluna davam etdi. Onların hər ikisi yorulub taqətdən düşmüş, həddindən artıq zəifləmişdilər. Uzun müddət dəhşətli məhrumiyyətlərə dözməyə məcbur olduqlarından hərəkətlərindən və üzlərindən mütilik yağırdı. Dallarındakı ağır şələnin altında belləri ikiqat olmuşdu. Cındır adyala bükülmüş ağır şələnin üstündən çəkilmiş qayışlar çiyinlərini kəsirdi. Yalnız alınlarından keçən qayış az-çox ağırlığı azaldırdı. Hər ikisində tüfəng var idi. Onlar başlarını aşağı salıb gözlərini yerə dikərək yeriyirdilər.

---

1 Şeirin tərcüməsi Sabir Mustafayevindir.

İkinci adam dedi:

– Kaş yolda anbarda gizlətdiyimiz patronlardan ikicəsi indi üstümüzdə olaydı, dünyaya dəyərdi.

Onun sözləri təsirsiz, səsi isə zəif çıxdı. Qabaqda gedən birinci adam ona cavab vermədən axsaya-axsaya çaya girdi. Çayın daşlara dəyib köpüklənən suyu süd rənginə çalırdı.

Arxadan gələn ikinci adam da onun dalınca çaya girdi. Çarıqlı-corablı olsalar da, buz kimi soyuq su ayaqlarını keyidirdi, topuqları üşüyür, göynəyirdi. Bəzi yerdə su dizlərinə qədər qalxırdı; hər ikisi çayın dibini ayaqları ilə yoxlaya-yoxlaya, səndələyə-səndələyə irəliləyirdi.

Arxadan gələn adam az qaldı şumal daşın üstündən sürüşüb yıxılsın, zorla özünü saxladı, ağrıdan bərk bağırdı, başı gicəlləndi, səndələdi, boş əlini yan-yörəsinə atdı, elə bil havadan yapışmaq istədi; özünü birtəhər düzəldəndən sonra qabağa yeridi, lakin təzədən səndələdi, bir dəfə də olsun dönüb geri baxmadan yoluna davam edən yoldaşına baxdı.

Öz-özü ilə götür-qoy edirmiş kimi bir dəqiqə dinməzcə hərəkətsiz dayanandan sonra qışqırdı:

– Bill, heç bilirsən nə oldu, büdrədim, ayağım topuqdan burxuldu...

Bill isə südtək ağaran çayda ayaqlarını dalınca zorla çəkə-çəkə suyu şappıldadaraq irəliləyirdi: o, gözünün ucu ilə də olsa, ətrafa baxmırdı. Arxada qalan adam onun uzaqlaşdığını görəndə üzü əvvəlki kimi heç nə

ifadə etməsə də, gözləri yaralı maral gözləri kimi yaşardı.

Bill çayın o tayına çıxdı, geriyə nəzər salmadan axsaya-axsaya irəlilədi. Çayın ortasında dayanmış adam gözlərini Billdən ayıra bilmirdi. Onun qurumuş dodaqları uçundu, uzun, cod bığları titrədi; dili ilə dodaqlarını islatdı.

– Bill! – o, var gücü ilə çığırdı.

Bu səs çığırtıdan çox fəlakətə düşüb tək qalmış insanın aman diləyən yalvarışlı fəryadı idi. Bill başını döndərib geri baxmadı. O uzaqlaşırdı, çayın ortasında, dizəcən suda dayanıb baxan yoldaşı isə onu gözləri ilə yola salırdı. Bill axsaya-axsaya, büdrəyə-büdrəyə alçaq dağa qalxırdı; o, xəfif mavi rəngə çalan üfüq xəttinə çatmağa can atırdı. Bill yalı aşıb gözdən itənə qədər yoldaşı onun dalınca baxdı. Sonra çevrilib tənha qaldığı geniş, hüdudsuz boş aləmi ağır-ağır nəzərdən keçirdi. Bill yox idi; o getmişdi, hər yer, bütün kainat bombоş idi.

Üfüqün yaxınlığında zəif-zəif şölələnən günəş hüdudsuz, tutqun və qalın dumanın içərisində zorla seçilirdi. Yolçu bədəninin ağırlığını salamat qıçının üstünə salaraq saatını çıxarıb baxdı. Saat 4 idi. İki həftəyə yaxın idi ki, o nə ilin hansı fəsli olduğunu, nə də vaxtı bilirdi. Lakin indi günəşi səmanın şimal-qərb hissəsində gördükdə iyul ayının axırı, ya da ki avqustun əvvəlləri olduğunu düşündü. Cənuba baxaraq Böyük Ayı gölünün haradasa uzaqlardakı qaramtıl, qorxulu dağların

arxasında olduğunu güman etdi. Müdhiş qütb dairəsi yolu da həmin istiqamətdə Kanada düzənliyindən keçirdi. İçində dayandığı kiçik çay Koppermayn çayının qolu idi, Koppermaynın özü də şimala doğru axır və Koronasiya körfəzinə, Şimal Buzlu okeana tökülürdü. Yolçu oralarda olmasa da, bir dəfə bu yerləri "Hudzon" ticarət şirkətinin xəritəsində görmüşdü.

O, tək qaldığı aləmi gözdən keçirdi. Mənzərə çox da xoşagələn deyildi. Hava tutqun idi. Alçaq, yastı təpələr elə bil yerə batmışdı; nə ağac, nə kol-kos, nə də ot vardı. Göz işlədikcə boş, qorxunc düzənlik uzanırdı. Gördüyü bu mənzərədən yolçu elə qorxdu ki, gözləri bir anlığa bərələ qaldı.

– Bill! – deyə iki dəfə pıçıldadı. – Bill!

O, qorxudan büzüşərək süd rənginə çalan suyun ortasında oturdu: elə bil ucsuz-bucaqsız düzənlik özünün əzəmətli, tükənməz, müdhiş qüvvəsi ilə onun üstünə çökərək amansız, dərin sükutu ilə onu boğurdu. O, birdən elə əsməyə başladı ki, tüfəngi əlindən şappıltı ilə suya düşdü. Səsdən diksinib ayıldı; qorxunu boğdu, özünü yığışdırdı, əllərini suya saldı, tüfəngi axtarıb tapdı, sonra zədələnmiş topuğunun ağrısını azaltmaq üçün sağ çiynini yüngülcə tərpədib şələni sol çiyninə sürüşdürdü. Ağrıdan üz-gözü qırışdı; ayağa durdu, ehtiyatla, səndələyə-səndələyə sahilə tərəf getdi.

Yolçu dayanmadan irəliləyirdi. Ağrı və əziyyətlərə əhəmiyyət verməməyə çalışır, ümidsiz, amma qəti, yeyin addımlarla Billin aşdığı yala dırmaşırdı. Onun indiki

görkəmi ayaqlarını dalınca sürüyən yoldaşı Billinkindən heç də az gülünc deyildi. O, zirvəyə çatanda ayaq saxladı, qabağa baxdı. Qarşıda uzanan dayaz, boş dərədə heç bir həyat əlaməti yox idi. Qəlbini təzədən çulğalayan qorxunu birtəhər qovdu, şələsini bir az da sol çiyninə tərəf verib axsaya-axsaya dağın döşü ilə enməyə başladı.

Dərənin ortası bataqlıq idi, buradakı qalın yosun suyu lif kimi canına hopdurmuşdu. O, addım atdıqca ayaqları altındakı yosun fırçıldayırdı. Yolçu yosun topalarının birindən digərinə sıçrayır, bataqlıq boyunca bu daşdan o daşa atlanır, Billin izi ilə getməyə çalışırdı.

O, tək olsa da, azmamışdı. Bilirdi ki, bir az da cəld tərpənsə, cılız, yarıqurumuş küknar və şam ağaclarının araya aldığı balaca gölün kənarına, yerli əhalinin dili ilə *titçin-niçili*yə, “xırda ağaclar ölkəsi” deyilən yerə gəlib çıxacaq. Bu gölə suyu dupduru balaca bir çay tökülürdü. Çayın hər iki sahilində qamış bitdiyini yaxşı xatırlayırdı, lakin bir dənə də olsun ağac yox idi. O bu çayın mənbəyinə qədər üzüyuxarı və oradan qərbə axan başqa bir çayın kənarı ilə onun Diz nəhrinə töküldüyü yerə qədər üzüaşağı gedəcək və orada ağzıüstə çevirdikləri qayığı tapacaq; onlar bu qayığın altında, torpağın içində anbar düzəltmişdilər. Bu anbarda patron, tilov ipi, qarmaq, balaca bir tor və başqa ləvazimatlar da var idi. Bu şeylərdən əlavə anbarda bir az un, bir parça qaxac edilmiş ət və bir qədər də lobya var idi.